# "HERATİ" naxışı

P.R.J. Fordun"Şərq Xalça Dizaynı" (Oriental Carpet Design) kitabından
London, 2007, səh. 74-86

Şərq xalçalarının vətəni olan İran həmişə heç də indiki sərhədləri ilə məhdudlaşmamışdır. Ən azından bilirik ki, ötən 2500 il ərzində bu gün mövcud olan xalça naxışları tədricən inkişaf etmiş, İran imperiyası ərazi baxımından mərkəzi və qərbi Asiyanın bir çox yerlərində genişlənmiş və kiçilmiş, əhalinin və hökmdarların etnik tərkibində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Tarixi xəritələrdə göstərildiyi kimi, əsl İran İmperiyası (Pazırık xalçasının toxunduğu dövrdə) Aralıq dənizindən Hind-Quş yaylasına kimi uzanırdı. Bir neçə əsr sonra isə İran uzun müddət türkmən və Monqol hökmranlığı altında qaldı. Bunu nəzərə alaraq, "İran" naxışlarından danışanda biz sadəcə müasir İranın sərhədləri çərçivəsində düşünməməliyik. Ona görə də ən çox işlənən və geniş yayılmış İran xalça naxışlarından birinin Herat (hazırda Əfqanıstanın ikinci şəhəri) adlandırılması tamamilə təbiidir.





1. "Herati" çeşnisi. "Kaimuri" Hindistan xalçası. 253x185, 1 m² -də 220 000 ilmə.

Herat (ilkin adı Alexandria Areion) e.ə. 328-ci ildə Böyük İsgəndər tərəfindən yaradılmışdır. Artıq XIV əsrdə Teymur Səmərqənddə öz sarayını yaradanda Herat İpək yolu üzərində əsas şəhər idi. Monqol Teymurilər sülaləsinin ən ziyalı hökmdarlarından olan Şah Rux (1405-1447) Heratı özünə paytaxt şəhər seçdi. O şəhəri Mərkəzi Asiyada ən əhəmiyyətli təhsil və mədəniyyət mərkəzlərindən birinə çevirdi. Şəhər qısa müddətə Şeybani özbəklər tərəfindən ələ keçirildi. Lakin 1510-cu ildə Səfəvi Şah İsmayıl tərəfindən bərpa edildi və bu dövrdən etibarən 1857-ci ilədək İran İmperiyasının ən əhəmiyyətli şəhəri olaraq qaldı. İran xalça naxışının əsas inkişaf dövründə Herat Xorasan vilayətinin paytaxtı idi.Həm də XVI-XVII əsrlərin ən əhəmiyyətli xalçalarının mənbəyi olan bütün Şərqi İran üçün paytaxt rolunu oynayırdı.Bunların arasında 3 növ xalçaya xüsusi diqqət verilir: tam inkişaf etmiş "Herati" naxışı; ilk qeyd olunan qrupun sələfləri təsirini bağışlayan, sərbəst şəkildə tam nəbati üslublu xalçalar; başqa, mürəkkəb, tam nəbati üslublu - "vaza (güldan) xalçaları" kimi tanınan qrup.

Bu halda dərhal etiraf olunmalıdır ki, hər üç növ əsasında XVI-XVII əsrlərə aid yüzlərlə xalçanın mövcudluğuna baxmayaraq, biz sadəcə onların heç birinin harda və ya nə vaxt istehsal olunduğunu dəqiq bilmirik.Hətta onların hamısının həqiqətən Şərqi İran mənşəli olduğuna belə əmin deyilik. Çox vaxt Kirman "vaza xalçaları"nın vətəni kimi təklif olunur. Floral "Herati"lərin vətəni kimi Məşhəd göstərilir. Və "Herati" naxışında nümunələrə Mərkəzi Xorasanda Kainat (Qainat) kəndləri mənsubluq iddia edirlər. Xronologiyaya gəldikdə, ehtimal ki, floral xalçalar və vaza naxışı XVI əsrin I yarısında, "Herati" naxışı isə bir qədər sonralar inkişaf etmişdir. Lakin spesifik nümunələrə gəldikdə, mütəxəssislər çox fərqli fikirlər irəli sürürlər.Hətta tarixdə 100 il və məkanda yüz kilometrlərlə uyğunsuzluqlar ortaya çıxır. Xalça mütəxəssisləri tərəfindən irəli sürülən müxtəlif halları araşdırmaq bu tədqiqatın imkanları xaricindədir. Bununla belə, oxucu "Herat"i naxışının tarixi zəminindən və üslub əlaqələrindən agah olmalıdır.

2.



## "Herati"nin törəmələri

İlk öncə Xorasanın müasir qəbilələrinin (məs: türkmənlər, bəluclar və kürdlər) xalçalarında rast gəlinən "Herati" naxışı ilə çoxlu sayda əlaqələrin qeyd olunması maraqlıdır. Bunlar 2-7-ci şəkillərdə əks olunub. Görünüşə görə götürdükdə, bu xalçalarda türkmən gölündən - medalyon və ya gül motivindən "Herati" naxışı yaradılıb. Belə bir əlaqənin mövcudluğuna dair hər hansı fikir qəbilə xalçalarının çoxlu sayda coşqun tərəfdarlarına qarşı çıxmaqdır; çünki burdan belə çıxır ki, türkmən gölü, köçəri incəsənət aliliyinin əsas amili İran manufakturasından bir naxışın keyfiyyəti azaldılmış törəməsindən başqa bir şey deyildir. Bunu təsdiq etmək böyük vaxt itkisidir. Hətta əlaqə mövcud olsa belə, biz həm də nəzərə almalıyıq ki, ola bilər ki, "Herati" naxışı ilk dəfə ortaya çıxanda bacarıqlı bir tərtibatçı tərəfindən işlənmiş orijinal ideyanı deyil, Herat bölgəsində mövcud olan naxış ənənəsinin refleksiyasını təmsil edir.Və həmin ərazinin qəbilə xalçaları eyni ənənənin daha qədim varisliyinin təcəssümüdür. 2-5-ci şəkildə əks olunmuş Xorasan qəbilə xalçaları "Herati" naxışının müxtəlif versiyalarını göstərir. 6-cı şəkil və 5-ci şəkildəki romb fiqurunun ziqzaq kənarlarının yarpaq formasını yaratmaq üçün necə açıldığını göstərir; "Herati" naxışının əsas xüsusiyyətləri bu sayaq aydın şəkildə meydana çıxır. 7-ci şəkil Birjanda oxşar Bəluc ərazisinin mərkəzi Dorukş kəndindən floral manufaktura üslubunu göstərir. A.C.Edvards "Herati" naxışının Qain-Doruks-Birjand bölgəsində meydana



gəldiyinə inanmaqda haqlı olarsa, yerli tayfa adamlarının Bəluc versiyasını 6-cı şəkildəki xalçanın 5-ci şəkildəki versiyaya dəyişməkdə kifayət qədər imkanları olardı. Təsir həm də başqa yolla ola bilər, lakin qədim zamanlardan köçərilər və kəndlilər yerli manufakturalarda nəyin daha çox satıldığını sadə yolla təqlid etməklə, yeni naxışları təqdim ediblər.



3.



5.



4.



6.



7.

2. "Sarux" türkmən xalçası. Dairəvi künclü gölün daxilində ziqzaq künclü göllər. 201x129. 1 m² -də 1 320 000 ilmə.
3. "Yamut" türkmən xalçası. Adətən bir növ göl diaqonal xətt boyunca təkrarlanır. 193x122. 1 m² -də 196 000 ilmə.
4. Əfqanıstanda toxunan "Bəşir" türkmən xalçası. 162x123. 1 m² -də 200 000 ilmə.
5. Xorasanda Bəluc tayfaları tərəfindən təkrarlanan romblar fərqli şəkildə toxunub. 190x90. 1 m² -də 195 000 ilmə.
6. Məşhəd və Herat arasındakı ərazilərdə toxunan "Bəluc" xalçası. 218x128. 1 m² -də 115 000 ilmə.
7. Nəbati üslubda toxunan "Doruxş" xalçasından fraqment. 1 m² -də 307 000 ilmə.



8.

## XVI əsr sələfləri

"Herati" naxışının inkişafına təsir edə biləcək üslub əlamətlərini aşkar edən çoxlu sayda qədim xalçalar hələ də mövcuddur. Türkmən əlaqəsi həndəsi romb formalı çərçivəni naxışın əlamətdar xassəsi kimi görən müşahidəçini heyrətləndirir. Lakin kimsə bu çərçivənin necə meydana çıxdığını soruşa bilər. Kimsə hər rombun içərisindəki gülü deyil, onların arasındakı gülü naxışın mərkəzi kimi qəbul edərsə, tamamilə fərqli bir şəkil ortaya çıxır. Qahirəyə aid Osmanlı xalçalarının Erdmann tərəfindən 1540-1550-ci il (oxşar nümunə 8-ci şəkildə göstərilib) üslubunda toxunan bir nümunəyə (əvvəl Berlin İncəsənət Muzeyində) və həmin əsrin sonlarına aid məscid lövhəciklərinə nəzər salsaq (şəkil 10) görərik ki, İslam mədəniyyətini təmsil edən dizaynerlər motivləri elə düzürdülər ki, onlar "Herati" naxışlarını xatırladırdı. 10-cu şəkildəki İran xalçası C.G.Ellis tərəfindən XVI əsrin ortalarına aid Kirman kimi təsvir edilir; o, yöndəmsiz tərtib edilmiş gözoxşayan palmetto və neştər-yarpaq motivini əks etdirir.Lakin naxışın əsas strukturu maraqlıdır. Çünki o, həm "Herat"-nəbati və həm də vaza xalçalarında daha da inkişaf etmiş sadə ideyanı təmsil edir. Bu həm də "Herati" naxışı üçün aydın potensial mənbə kimi də qarşılanır. Bu nümunənin vaza xalçaları (22-ci şəkil) kimi tanınan qrupa aid olduğu aydındır. Amma bu növ xalçalarla müqayisədə üslubca daha az həndəsidir. Vaza xalçaları və Herati-floral nümunələri arasında əlaqə rolunu oynayır. Axan gül saplaqlarından ("islimi") asılı olan strukturu yaratmaq üçün nəzərdə tutulan tərtibatın başlanğıcı xalçanın yuxarı hissələrində çətinliklərə məruz qalır. Lakin sonrakı xalçaçılar üçün dizaynın bütün elementlərini Qahirə xalçalarında mümkün olmayan dərəcədədaxili əlaqələndirməyə imkan yaradıb. 9-cu şəklin əsas strukturu çoxlu sayda müxtəlif yollarla təkmilləşdirilə bilər. 11 və 12-ci şəkillərdə görünən iki versiyası asanlıqla "Herati" naxışına aparıb çıxara bilərdi. Bu tip tərtibatlarda "sərbəst sonluqlar" yoxdur: naxışın bütün hissələrinin bir-birindən asılılığı məscidlər üçün xalça toxuyan dizaynerlər üçün çox dəyərli bir xüsusiyyət ola bilər. Çünki o, kosmosun islami nöqteyi-nəzərdən ənənəvi təsəvvürlərinin mühüm aspektini əks etdirir.

9.



Bu dövrün arxa fon materialının ən inan-

10.





dırıcı açıqlaması Werner Grote-Hasenbalg tərəfindən klassik xalçaşünaslıq kitablarından biri olan "Der Orientteppich, seine Geschichte und seine Kultur"da (Şərq xalçası, onun tarixi və mədəniyyəti) verilib. Təxminən 70 il əvvəl nəşr olunmasına baxmayaraq, hələ də mütaliə üçün kifayət qədər dəyərlidir. Bu müəllifin təfsilatlı müşahidələri sonradan tədqiqatçıların araşdırmaları ilə əvəz olunsa da, onun əsas düşüncə xətti sabitdir.Və aşağıda göstərilən qaydada ümumiləşdirilib. Grote-Hasenbalg kitabında İran incəsənətinin çiçəklənən quruluşunun XIII əsrdə monqollar tərəfindən tamamilə dağıldığı məqamdan danışmağa başlayır.

1219-cu ildə başlayan bir sıra əməliyyatlar vasitəsilə monqol qəbilə başçısı Çingiz xan Şimali Çini, Şərqi Türküstanı və İranı Qafqaz boyunca və ondan o yana özünə tabe etdi. Səlcuq türklərinin paytaxtı Bağdad 1258-ci ildə monqol imperiyası tərəfindən zəbt olundu. 50 il sonra həm İran, həm də Türkiyə müstəqillik əldə etdilər.Lakin 1380-1390-cı illərdə Teymur tərəfindən yenidən hücuma məruz qaldılar. Onun kəmfürsət monqol və türkmən qoşunları Şimali Hindistan, İran, Qafqaz və Türkiyə də daxil olmaqla Asiyanı demək olar ki, tamamilə işğal etdilər. 1369-cu ildə o, Səmərqənddə dünyanın ən möhtəşəm saraylarını tikdirdi. Səmərqənd onsuz da Şərq və Qərb arasında əsas ticarət xətti, eyni zamanda İpək yolunun əsas məntəqəsi idi. Teymur incəsənətə böyük əhəmiyyət verirdi. Bir çox Çin sənət adamlarını yeni yaratdığı imperiyada işləməyə gətirirdi. İpək yolunun üzərində olan Buxara və Herat şəhərləri monqol sarayının əzəmətindən bəhrələndi. Xüsusilə də Herat Teymurun varislərinin nəzarəti altında qabaqcıl incəsənət mərkəzinə çevrildi. Bununla da bütövlükdə İran incəsənəti üçün dirçəliş mənbəyi oldu. Burada monqol təsiri sərhədsiz idi. Qərbi İranda xalça naxışının daha ciddi qədim üslubu yaşamağa davam etdiyi biz zamanda, paralel olaraq Şərqi İranda Çin təsiri ilə yeni üslub meydana gəlməyə başladı. Sonralar böyük əhəmiyyət kəsb edən Çin motivləri xalça naxışları sisteminə daxil oldu.



11.



12.

## Çin üslubunun təsiri

Buludtopası, simurq, əjdaha və palmetto monqollarla İrana yol açan və XV əsrin xalça sənətinə hopan motivlərdəndir. Onların əhəmiyyəti və simvolikası bu illüstrasiyalar üçün başlıqlarda yerləşdirilib. Palmetto qədim zamanlarda Qərbi Asiyada geniş yayılmış dekorativ motiv olmuşdur. Cessika Rosan (çin ornamenti: nilufər və əjdaha, London 1984) palmettonun Misirdə və Yunanıstanda meydana gəldiyini, Böyük İsgəndər tərəfindən Mərkəzi Asiyanın işğalından sonra orada memarlıq bəzəklərinin əsas elementi olduğunu, oradan bütpərəstliyin yayılması ilə Çin ərazisinə gətirildiyini göstərir.Monqol işğallarına kimi onun Asiya islam incəsənətində istifadəsi məhdud olmuşdur. Ona görə də ehtimal ki, o, xalça incəsənətinə monqol/Çin təsiri ilə yenidən "təqdim edilmişdir". Cessika Rosan onun XV əsrin İran dekorativ incəsənətində geniş istifadəsini sənədləşdirmişdir. Artıq XVI əsrin əvvəllərində palmetto floral naxışların əsas elementi kimi tam şəkildə müəyyənləşmişdir.

Grote-Hasenbalgın bildirdiyinə görə, Çin nüfuzunun fərdi motivlərin təqdimatından da əhəmiyyətli xüsusiyyəti var.Və bu,ifadə azadlığına və daha axıçı, koloritli üsluba olan həvəsdir. O təsdiq edir ki, Çin təsirindən ən uzaqda qalan Qərbi İran ciddi islam üslubunu daha çox qoruyub saxladı. Bu dövrdə Heratda və Şərqi İranda yeni azad üslub inkişaf edirdi. 17-18-ci şəkillər həmin fərqləri nümayiş etdirir. Bunlardan ikincisi – Şimal-qərbi İran medalyon xalçası – mütəxəssislərin tarix baxımından mübahisə etdikləri bir neçə nümunələrdəndir. McMullan kolleksiyasında başqa bir nümunə Ettinghausen (Toxuculuq Muzeyi Jurnalı, iyun 1970) tərəfindən Təbrizə, tarix baxımından isə XVI əsrin ikinci yarısına aid edilib. Bütün bunlar sərt və iti bucaqlıdır. Grote-Hasenbalg bunu XV əsrin ciddi üslubunun qalığı hesab edir. Müəllif xalçaların hamısının yerliyində "Herati" naxışının və daha erkən islam incəsənətinin Şərq motivləri

8. XVI əsrin ortalarına aid Qahirə xalçasından fraqment hissədə motivlər "Herati" çeşnisindəki quruluşa malikdir. "Viktoriya və Albert" Muzeyi, London.
9. XVI əsrə aid Şərqi və ya Cənub-Şərqi İran xalçası. 265x195.
10. XVI əsrdə Qahirədə tikilmiş məscidin kaşı daşı. "Viktoriya və Albert" Muzeyi, London.
11-12. "Herati" çeşnisinin yaranışı



13.

arasında əlaqəni təsdiq edən həndəsi variantının istifadə olunduğunu qeyd etmir. Dimand Təbriz dizaynerlərinin bu gərginliyi tədricən necə aradan qaldırdıqlarını və bəzi Herat miniatürlərində rast gəlinən axıcılıq üslubunu göstərir. Grote-Hasebalgın artıq XVI əsrin birinci yarısına aid axıcı Heart üslublu nümunəsinin şəklini çəkmək mümkün deyil; çünki bir zamanlar həmin xalça Leypziq muzeyində olub, indi isə yoxa çıxıb. "Osterreichisches Museum fur angewandte Kunst" (Avstriya Tətbiqi-Sənət Muzeyi) kolleksiyasındakı məşhur xalça burada öz məkanında təsvir edilib; çünki o üslubca itmiş Leypziq nümunəsinə çox yaxındır. Mənşəyi ya Şərqi,ya da Mərkəzi İran ola bilər. Üslubca o, "Herat-floral" üslubunu ən təfsilatlı və tam inkişaf etmiş formada əks etdirir.

Bizim Qərbi İran incəsənəti ilə bağlı Grote-Hasenbalgın arqumentini təsdiq etmək üçün dəqiq sübutumuz yoxdur. Erdmann həndəsi üslubun Heratda florala məhz monqol işğalından 100 il sonra yol açdığını da göstərib. Bununla belə, Herat xalça naxışlarında miniatür rəssamlıq və kitab cildləmə kimi mühüm məktəblərin, orada XV əsrdə inkişaf etmiş müvafiq incəsənətlərin davamı kimi aparıcı olmuşdur. Monqol hakimiyyəti zəiflədikcə (Teymurun işğal etdiyi torpaqlarda yaşayan əhalinin islam dinini qəbul etməsi ilə monqol imperiyasının "iranlaşması" prosesinin başlanğıcı oldu) Anadoluda Osmanlı türkmənlərinin və iranlıların mədəni müstəqilliyi özünü təsdiq etməyə başladı. XV əsrin sonlarında Teymur sülaləsinin tam siyasi süqutu 1498-1510 illərdə İranda Səfəvi İmperiyasının, Türkiyədə və Asiyanın qalan hissəsində, İranın qərbində Osmanlı imperiyasının (Teymurun ölümündən (1405) Böyük Süleymanın hakimiyyətə gəlişinə (1520) qədər tədricən davam edən proses) və 1525-1530-cu illərdə Hindistanda və Əfqanıstanın bəzi hissələrində siyasi cəhətdən monqol, mədəniyyət baxımından isə iranlaşmış Moğol imperiyasının yaradılması ilə nəticələndi.



14.

İranın XV əsrə aid xalçaları bu günümüzə qədər gəlib çıxmasa da, Herat miniatürlərindən məlum olur ki, onların naxışı əsasən həndəsi olub; bu bəzən bütün canlıların incəsənətdə islam tələblərinə görə, stilizə olunduğunun ciddi nümunəsi kimi hesab edilir. XV əsrin sonunda inkişaf edən floral üslub Qərb incəsənətində Qotik və Roman üslubları arasında olan fərq qədər gözlənilməz dəyişikliyi özündə əks etdirdi. Dəyişiklik özü, ehtimal ki, İran siyasi müstəqilliyinin bərpasına kömək edən faktor idi. Grote-Hasenbalgın fikrincə, 17-ci şəkildə göründüyü kimi, Herat sərbəst üslubu XVI əsrdə İran boyunca yayılan, Şah Təhmasibin (1524-1576) və Şah Abbasın (1587-1629) hakimiyyəti dövründə ən yüksək zirvəsinə qalxan xalça sənətinin əsasını təşkil edirdi.

Bu Qızıl Dövrdə, Səfəvi imperatorlarının öz hakimiyyətini yaratdıqları, paytaxtı əvvəl Ərdəbilə, sonra Təbrizə, Qazvinə və nəhayət İsfahana köçürdükləri bir dövrdə, Təbrizin, İsfahanın və Kaşanın xalça manufakturalarına xarici hökmdarlar üçün bahalı hədiyyələr, məscid və saraylar üçün isə nümayiş ediləcək nümunələr hazırlamaq sifarişi verilirdi. Cənub-şərqi və Şərqi İran tədricən diqqət mərkəzindən uzaqlaşdı. Lakin böyük ehtimalla yerli istifadə üçün çoxlu sayda xalça istehsal etməkdə davam etdi.Onları burda - əyalət paytaxtında xarici ölkələrin diqqətini cəlb etdiyi üçün "Herat" xalçaları adlandırırlar. Lakin onlardan hər hansı birinin Heratda istehsal olunduğu sual olaraq qalır. Dəqiq sübut demək olar ki, mövcud deyil: maraq ərazinin naxışlarının inkişaf etdiyi ümumi üsul üzərində cəmlənir.



15.





16.



18.

13. XV əsrə aid Anadolu xalçasında "Əjdaha və Simurq" təsviri.
14. "Çelsi" xalçası XVI əsrə aid İran xalçalarının bəlkə də ən möhtəşəmidir. Bu xalçanın haşiyəsində "Əjdaha və simurq" təsvirləri və "Çin buludu" motivi toxunub.
15. XVI əsr Çin xalçasının bir hissəsində istifadə olunmuş nilufər palmettası.
16. XVI əsrin ortalarına aid "Kaşan" xalçasında palmettalar. 250x150. 1 $m^2$-də 998 000 ilmə.
17. "İmperatorun xalçası"ndakı axıcı "Herati" dizaynı ən təkmil formadadır. 760x325. 1 $m^2$-də 495 000 ilmə. Tətbiqi-İncəsənət muzeyi, Vyana, Avstriya.
18. XVI əsr İran xalçasından fraqment. Əsas sahədə "Herati" çeşnisinin həndəsi formalı oxşarı toxunub.



17.

Naxışın tarixinin izinə düşmək ona görə çətindir ki, onların sadə və mürəkkəb formaları mövcud olduqda, bəzi mütəxəssislər sadə variantı daha zərif variantın sonrakı korlanmış forması hesab edirlər. Digərləri isə sadəni orijinal, mürəkkəbi isə onun törəməsi hesab edirlər. Beləcə, Herat xalçalarının və vaza naxışlarının (çox vaxt Kirmana aid edilir) xronologiyası çox mübahisəlidir. Bir daha xatırlatmaq lazımdır ki, bəzi dəyişiklik etməklə Grote-Hasenbalgın mülahizələri sitat gətirilə bilər.



19.



20.

## Hindistan ölçüsü

XVI əsrin lap əvvəllərində Şərqi İran orijinal Herat üslubunun zərif təbii balansının və axıcı proporsiyasının hədsiz kütləviləşən və stilləşən və uzun əyri-üyrü saplaqlarla (islimi) birləşən gül və yarpaq formalarına keçməsini daxil olduğu inkişafın başlanğıcının şahidi oldu. Bir çox təsirlər vardı və naxışlar bir neçə müxtəlif xətlər üzrə inkişaf edirdilər. Bu dövrdə çox vaxt etinasızlığa düçar olan bir mühüm faktor İran və Hindistan arasındakı mədəni mübadilə idi. Teymurun sonuncu əhəmiyyətli sələfi Babur idi. Babur Fərqanə əyalətinə irsən sahib oldu, Səmərqəndi 3 dəfə əldə etdi və itirdi, özünü təhlükəsiz şəkildə Kabulun hökmdarı təyin etdi və orda XVI əsrin əvvəllərində Hindistanda Moğol İmperiyasının əsasını qoymaq üçün öz gücündən istifadə etdi.

Moğol və Səfəvi imperiyaları arasında münaqişələr baş verirdi; ən güclü zərbə alan şəhər cənub-şərqi Xorasanda 1595-1649-cu illərdə bir neçə dəfə əldən-ələ keçən Qəndahar oldu. Digər vaxtlarda hər iki qüvvə başqa güclərə qarşı – bir məqsədlə birləşirdilər. Lakin hər şeydən öncə monqol hökmranlığının ümumi varisliyindən, islam dinindən və ümumi saray dili - fars dilindən törəyən mədəni mübadilə mövcud idi. Beləliklə, 1500-1700-cü illərdə Herat və İsfahan arasındakı kimi əlaqə Herat, Kirman, Lahor və Delhidə də var idi. Xalça tarixçiləri Hindistanda toxuculuğun tarixindən bəhs edərkən bu məsələyə xüsusi diqqət yetirirlər. Lakin İranda bu amilin əks təsirinə cüzi diqqət yetirirlər. Heybərin cənubunda toxunan "Herati" üslublu "Hind-İsfahan" adlı xalçalar XVI əsr Şərqi-İran xalçasının inkişafının ayrılmaz tərkib hissəsi kimi çıxış etmiş, bununla da bölgədə yaradılan ayrı-ayrı naxışların sabitləşməsində öz rolunu oynamışdır (şəkil 19-29). Grote-Hasenbalgın göstərdiyi kimi, bu təkcə "Herati" naxışının deyil, həm də 1700-cü ilədək "Mina Xani" və "Coşaqan" üslublarının da formalaşması ilə nəticələndi. Bu məqalənin bir neçə yerində rast gəlindiyi kimi, o vaxtdan indiyədək ümumilikdə İran xalça naxışında dominantlıq rolunu oynayıb.

## "Herati" naxışının inkişafı

Tədqiqatçılar tərəfindən həmişə qeyd olunmayan bəzi üslubi xüsusiyyətlər haqqında danışmağa dəyər. Bunlardan biri vaza xalçaları və floral-Herat xalçaları arasında əlaqədir. Çarlz Qrant Ellis vaza naxışı haqqında qeydlərində (Toxuculuq Muzeyi Jurnalı, 1968) bu məqama toxunmur. Halbuki, bu Grote-Hasenbalg tərəfindən təxminən 50 il əvvəl qeyd edilib. A.C.Edvards qeyd edir ki, floral-Herat nümunələri damalı-kağız olmadan toxuna bilmirdi. Ona görə də onun şəhər manufakturasının məhsulu olması ehtimal edilir. Grote-



22.





23.



24.



25.

Hasenbalg isə bəyan edir ki, vaza xalçaları özlərinin ciddi, simmetrik üslubu ilə "İran folklor incəsənətinin ən mükəmməl" nümunələridir. Görəsən, onlar bir-birlərindən törəməyiblər ki?! Bəlkə, yarı həndəsi vaza naxışları floral üslubun kobud törəməsidir? Ya da onlar eyni mənbədən ayrı-ayrılıqda inkişaf ediblər?! Görəsən, həndəsi vaza naxışları floral naxışlardan əvvəl əmələ gəlməyib ki?!



26.

19. XVI əsrə aid məşhur "Kirman" vaza xalçasında gül motivləri. "Viktoriya və Albert" Muzeyi, London.
20. XVII əsrdə Lahorda toxunan xalçada gül motivləri. Metropoliten Muzeyi, Nyu York.
22. XVI əsrə aid "Kirman" vaza xalçasından fraqment. Tətbiqi-İncəsənət Muzeyi, Vyana, Avstriya. (Digər fraqment nümunəsi Vaşinqtondakı Tekstil Muzeyində saxlanılır).
23. "Kirman" vaza xalçası. C.Grant Ellis bu xalçanı Tekstil Muzeyində (Vaşinqton) bu qrupa aid ən qədim nümunə hesab edir.
24. Nəbati Herat xalçasından fraqment. Tam ölçüsü 265x180. Əvvəllər İslam İncəsənəti Muzeyi, Berlin. Grote-Hasenbalg bu xalçanı XVI əsrin birinci yarısına, Erdmann isə 1600-cü illərə aid edir.
25. Nəbati Herat xalçasından fraqment. XVI əsrdəki nümunələrə xas xüsusiyyətlər bu xalçada öz əksini tapıb. "Viktoriya və Albert" Muzeyi.
26. XVI əsrin sonuna aid nəbati Herat xalçası. 380x296. 1 $m^2$-də 420 000 ilmə. Xalça Muzeyi, Tehran, İran.



27.



28.

Hər iki qrupu əlaqələndirən maraqlı bir xüsusiyyət Çin bulud-topası motivi ilə "davranış"formasıdır. 22-ci şəkildəki vazanın 25-26-cı şəkillərdəki bulud-topalarına bu qədər bənzəməsi təsadüfdürmü? Hər iki halda bulud-topası dizaynerin qələmini yüngülcə gəzdirməklə və ya toxucunun xana-rəsmini sadəcə düzgün oxumaması ilə vazaya çevrilə bilər. Bu həm də bunun və digər vaza xalçalarının çoxunda diaqonal ox üzərində baş verir. Tədqiqatçıların nadir hallarda toxunduğu digər məqam isə vaza və Herat-floral növlərinin inkişafı dövründə yarpaq motivlərinin təqdimatının vacibliyidir. Bu, dizaynerlərin əldə etdiyi həlledici innovasiya olub, çünki erkən klassik xalçalarda yalnız nəbati və zoomorf motivlərindən istifadə etmək bu sənətin inkişafını çətinləşdirərdi. Bütün bu xalçaların qeyri-dəqiq xronologiyasına görə, adətən "lanset yarpaqlar" adlanan uzadılmış yarpaq motivlərinin necə və nə vaxt meydana çıxdığı məlum deyil. Bu motivlər 25-ci şəkildə yoxdur, lakin inkişaf xətlərinin birində onlar 27-29-cu şəkillərdə açıq göründüyü kimi, ümumi naxışda dominant yer tutublar. Onlar floral-Herat xalçalarının "Herati" naxışına çevrilməsi üçün əsas olublar. "Herati" naxışının mənbəyi nə olursa-olsun, müasir istehsalatda istifadə edilən forması problemsizdir: gül rombşəkilli saplaqlarla əhatə olunub, onun dörd tərəfində böyük bir yarpaq paralel qoyulub. İranın bir çox yerlərində yarpaq balıq kimi verilir və naxış "mahi" ("balıq" deməkdir) və ya "hovuzda balıq" naxışı adlanır. Lakin hindlilərin yuxarıda "Boteh" motivi kontekstində müzakirə edilən "tutuquşu" Sərabəndlərinə istinadı kimi, bu təsvir toxucuların və ya dilerlərin xarici ənənədən götürülmüş naxışa özlərinin ibarəli interpretasiyasını oxuması təsirini bağışlayır.

Xorasandan kənarda "Herati" naxışının yayılması (orada meydana gəldiyini güman edərək) məlumdur. Ümumi qəbul edilən, lakin burada da göründüyü kimi, çox da yaxşı sənədləşdirilməyən ənənə vardır ki, təxminən 1730, yaxud 1740-cı ildə Nadir şah toxucuların çoxunu Xorasandan mərkəzi İrana - hazırkı Ərak-Fərahan bölgəsinə və Coşaqan boyunca əraziyə, İsfahanın şimalına köçürmüşdür. Proses zamanı o, Şərqi-İran naxış konsepsiyasını köçürmüşdür və bununla Mina xanı və Coşaqan naxışlarının inkişafına yol açmış, eləcə də "Herati" naxışının yayılmasını stimullaşdırmışdır. Fərahanın adı ətrafında müəmma qalmaqdadır. Bu gün Yuxarı və Aşağı FərahanTafrişə bitişik Ərakın şimal-şərqində inzibati bölgələrdir. Məşhur əntiq Fərah naxışının bu ərazidə meydana gəlməsi güman edilsə də, XIX əsrin sonları -XX əsrin əvvəllərində kütləvi toxunuşun Məlayirə doğru Ərak qərb bölgəsinin xüsusi vurğulanmaqla daha geniş əraziyə məxsus olduğu görünür. Bu təzadlı vəziyyətin izahı nə olursa-olsun, Məlayir-Fərahan xalçaları tez bir zamanda "Herati" orijinal xalçaları kimi məşhurlaşdılar. Və "Fərahan naxışı" təsvir kimi "Herati" naxışı qədər adi qaydada işlənir. Bu İranın bir çox yerləri üçün səciyyəvi naxış olmuşdur. Lakin əslində o hər yerdə istehsal olunub,həm düzxətli, həm də əyrixətli formalarda rast gəlinir. Sadə kəndli xalçasından tutmuş zərif manufaktura xalçalarına kimi tam yaradıldıqdan sonra "Herati" naxışı "Buta"motivi kimi,müxtəlif coğrafiyalarda eyni dərəcədə fərqliliklə müstəqil naxış kimi istifadə edilib. 30-cu şəkildə əks olunan "Herat"dan XVIII əsr xalçası ("Viktoriya və Albert" Muzeyi, Toxuculuq Tədqiqat Kolleksiyası) naxışın əsas xarakteristikasını özündə əks etdirir. Burada motivlər bu naxış üçün qeyri-münasibdir, normadan daha böyük ölçüdə çəkilib, lakin burda gözoxşayan odur ki, bu versiya özündə floral və həndəsi üslubların qarışığıdır. Toxucu naxışın icrasında bir çox əyri xətlərdən istifadə etmişdir, lakin onun yarı-həndəsi kəndli xüsusiyyətini pozmamışdır. Bu xüsusiyyət naxışın ən yaxşı versiyalarının çoxunda nəzərəçarpacaq və şübhəsiz ki, onun geniş tələbatına öz töhfəsini verir.



30.



29.

27. XVII əsrə aid Hindistan xalçasından fraqment. 256x220. İslam İncəsənəti Muzeyi, Berlin.
28. "Herati" dizaynını əks etdirən mükəmməl nümunə. Əvvəllər Dekorativ İncəsənət Muzeyində (Leypsiq, Almaniya) saxlanılırdı.
29. "Herati" xalçasından fraqment. 990x358. Ehtimal ki, 1640-cı ildən əvvəl toxunub. "Thyssen-Bornemisza" kolleksiyasından, Luqano, İsveçrə.
30. "Herati" xalçasından fraqment. "Viktoriya və Albert" Muzeyi. Muzeydə bu xalçanın, Fərahan ərazisinə xas təkarğaclı və türkbaf üsulu ilə toxunmuş oxşarı mövcuddur.